# Yeni Çağ - necə başlayacaq?!

*XXI əsrin aforizmləri*



Rahid Ulusel



**Birinci hissə**

Üçüncü minillik zaman kimi başlayıb, epoxa kimi yox.

* * *

Həqiqət körpə uşaq kimidir - yıxıla-yıxıla böyüyür.

* * *

Transendental dünyanın zamanı - əbədiyyət, empirik dünyanın zamanı - indidir.

* * *

Yeni Çağ onda başlayacaq: İnsan dağıtmadan qurmaq sənətinə yiyələnəndə.

* * *

Dünya - sonuna çatmaq üçün deyil, yolu ilə getmək üçündür.

* * *

Gələcək - gəlmir, gətirilir.

* * *

Sivilizasiya onu tapdayanları daha çox yadında saxlayıb.

* * *

Aforizm - mütəfəkkirin strategiyasıdır.

* * *

Ən yüksək səviyyəsinə aforizmdə çatır elitar mədəniyyət.

* * *

Aforizm - dərin fikrin geniş ərazilərini fəth etsə də, orada öz İmperiyasını yox, Respublikasını qurur.

* * *

Alim dünya ilə danışır. Şair dünyanı danışdırır.

* * *

Pillələrlə kimi hündürlüyə qalxır, kimi yüksəkliyə.

* * *

Özün ol. Özün olmayanda yerinə başqası dolur.

* * *

İnsanların əhliləşdirilməsi: bunu tarix boyu heyvanlar həyata keçirib.

* * *

Arxandan Şər səni qovduqca, qarşında Onu daha amansız görəcəksən.

* * *

Dərinlərin boğulduğu yer - dayazlıq.

* * *

Kainat özünün ən kiçik zərrəsindən belə böyük deyil.

* * *

Mədəniyyətlər öz dilində danışanda, bir-birini daha yaxşı başa düşür.

* * *

Miloslu Veneranın qırılmış qolları iki min ildir ki, sənətə və gözəlliyə məbəd tikir.

* * *

Aralarındakı körpüləri yandıranlar eyni uçuruma yuvarlanırlar.

* * *

İnsanlarla məsafə saxlamasan, onlarla doğmalaşa bilməzsən.

* * *

Dünyanın maddi nemətləri nə qədər çox olsa da, həmişə onun qıtlığını çəkənlər və içində üzənlər var.

* * *

Atılan, lakin dəyməyən güllələr sonrakı müharibələrə saxlanılır.

* * *

İnsan yalnız sındırılandan sonra məlum olur ki, o, şüşədən imiş.

* * *

Düz qırmızı xəttə çatanda, arxada da, öndə də uçurum olduğunu görürsən.

* * *

Vicdanını itirənlər həmişə onu başqalarının ayaqları altında tapırlar.

* * *

Papa İsanın özünü kütləyə, kölgəsini siyasətə xərcləyir.

* * *

Ən böyük Demokrat elə - Tanrıdır. İlk müxalifəti də özünə qarşı O yaradıb - Şeytanı.

* * *

Deyəsən, nə Qərb Şərqi, nə də Şərq Qərbi başa düşəcək. Ortalıqda qalanlar isə heç birini.

* * *

Başın boşluğu həm də o deməkdir ki, o yalnız zibillə doldurula bilər.

* * *

Əsas funksiyadır: onu icra edən həmişə tapılır.

* * *

Paleolit çağında atılan bumeranq hədəfinə çatmasa, bəşəriyyəti də özü ilə birlikdə arxaik zamanlara qaytaracaq.

* * *

Bir yerdə öldürülən həqiqət min yerdən daha böyük qüvvətlə fışqırır.

* * *

Həyat, gələcəyi keçmişindən böyük olanda irəliləyə bilir.

* * *

Dünyaya öldüyün günün səhərinin gözü ilə bax! Nə görürsən, dostum?!

* * *

Çoxu diqqətlə qulaq asır - elə başa düşmədiyindən.

* * *

Dünyada o qədər absurd var ki, o olmayan yerə ayağını basanda boşluğa düşüb yıxılırsan.

* * *

Ölənin nəyinə ağlayırıq... Bəlkə, həm də ölüncəyədək onda doğulmayana?!.

* * *

İnsan var ki, aldanmağı və özünü məharətlə aldadılmış kimi göstərməyi ona aldatmağı və aldatmağa məharətlə səy göstərməyi qədər ləzzət verir.

* * *

Ağac: ondan kamança da düzəltmək olar, dəyənək də.

* * *

Haram - qudurdur, Halal - doyurur.

* * *

Kosmosdan açıq şəkildə görünür: ikiüzlülük - iki üzün ortasında yerləşir.

* * *

Srağagün - Meymun, dünən - Qul, bu gün - Darvin olan bəşəriyyət sabah - İnsan olmaq üçün gərək öz Mənəviyyat dəyərlərinin panteonu üzərində yüksəlməyi bacarsın.

* * *

Dünyanın ən dəqiq snayperi - həqiqət.

* * *

Aforizmlər mədəniyyət cəbhəsində 300 spartalı tək döyüşür.

* * *

Yuxudakı yox, gerçəkdəki uyqu - yalan.

* * *

Qaranlıq - işıq sürətini yalnız beyinləri fəth edəndə alır.

* * *

Özünü tapmayanı Tanrı da axtarmır.

* * *

Üfüqlər ona görə hamının dostudur ki, heç kimi sıxmır, hər kəsi özündən daha artıq olduğunun dalınca yürüdür.

* * *

İndinin sol qolu - Keçmiş, sağ qolu - Gələcəkdir.

* * *

Çağı görmək üçün gərək onun içindən piyada keçib, sərhədlərini adlayıb kənarında dayanasan.

* * *

Pəncələrinə təkan verib yuxarı sıçra: görəcəksən ki, əsl yüksəklikdə hamı bərabərdir.

* * *

Həqiqətlər sərt şəkildə üz-üzə gələndə də toqquşub bir-birini sıradan çıxarmır, ustalıqla çevrilib yanaşı dayanır və birgə irəli baxırlar.

* * *

Vicdanın ekoloji böhranı mənəviyyat quraqlığı yaradır.

* * *

Çoxları uzun illər ölü ruhunun meyitini sürüyür diri canında.

* * *

Sadəlik - insanın öz təbii keyfiyyətlərini heç bir rəng qatılmadan tam dolğunluğunda təzahür etdirmək mədəniyyəti, qarşısındakını yetərincə dəyərləndirmək bacarığı, əxlaqın istedadıdır.

* * *

Zamanı idarə etməyin yolu yalnız o halda tapılır ki, əbədiyyətin yaradıcı anlardan ibarət olduğu dərk edilir.

* * *

Sən mənə şübhə ver, mən ondan inam yaradım.

* * *

Qənaət - qazancın yarısı, bədxərclik - iflasın hamısıdır.

* * *

Nə qədər əhəmiyyətli söz desələr də, dünya təsadüfi adamlara inanmır.

* * *

Dilucu salamlaşmalar - səthi münasibətlərin statuskvosudur.

* * *

Qibtə, həsəd, paxıllıq: dərin psixoloji əsaslara malik olmayan toplumlar bunları fərqləndirə bilmir.

* * *

Süzgəc-yaddaş - şüur axınında xilaskar: o, insan xarakterini dəyər münasibətləri və keyfiyyət meyarları təməlində möhkəmləndirir.

* * *

Doğru sözü dolama deyən kəs təkcə manevr etmir, həm də psixoloji naturalizmin yeni modusunu təqdim edir.

* * *

İnsanın qarşısına divarlar, o - daş olmadığından çəkilir.

* * *

Azadlıq hissini itirənlər - sürü instinkti qazananlardır.

* * *

Kəndir iki qulu birləşdirir, iki bəyi yox.

* * *

Sənə sürünürlərsə, - sənə dırmanacaqlar.

* * *

Biganəliyimiz begemot tək əsnəyir.

* * *

Öz qəlbinin yolu ilə getməyənlər bu dünyanın çalın-çarpaz yollarında azırlar.